Gəncə Dövlət Universiteti

Rektor: Y.Ə.Yusibov

GDU Elmi Şurasının 31.01.2024-cü il

tarixli iclasında (Pr. № 05) təsdiqlənmişdir.

# PEDAQOJİ İNTERNATURANIN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

# QAYDALARI

(Bakalavriat səviyyəsi üzrə təhsil ixtisasları üçün)

GƏNCƏ - 2023

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

# PEDAQOJİ İNTERNATURANIN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ QAYDALARI

(Təhsil ixtisaslarında təhsil alan bakalavrlar üçün)

**Gəncə Dövlət Universiteti üzrə "Pedaqoji internaturanın təşkili və keçirilməsi Qaydaları" "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, ARNK-nin 30.12.2023-cü il tarixli, 489 saylı Qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"na, Təhsil proqramlarına, eləcə də GDU-nun Nizamnaməsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanaraq Gəncə Dövlət Universitetinin Elmi Şurasının 31.01.2024-cü il (pr.№ 05) tarixli iclasında müzakirə və təsdiq olunmuşdur.**

**Elmi redaktor:**

***Ziyafət Vilayət qızı Bayramova –*** GDU – nun Təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti

**Tərtib edənlər*:***

***Şahin Nadir oğlu Xurşudov –*** GDU - nun Tədris məsələləri üzrə prorektoru, dosent

***Elturan Cahad oğlu Yusifov –*** GDU - nun Tədris departamentinin direktoru, dosent (attestatsız)

***Allahverdi İsgəndər oğlu Quliyev –*** GDU - nun Təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri, dosent

***Cabbar Ibrahim oğlu Qarayev -*** GDU - nun Təcrübə və Karyera şöbəsinin müdiri.

***Günay Salman qızı Kazımova –*** GDU - nun Təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti (atestatsız)

**Rəyçilər:**

***Şahin Tağı oğlu Tağıyev -*** GDU-nun Ümumi pedaqogika kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru, professor

***Rüfət Lətif oğlu Hüseynzadə -*** ADPU-nun Ümumi pedaqogika kafedrasının professoru, pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim

***Zümrüd Soltan qızı Cavadova -*** GDU- nun Psixologiya kafedrasının müdiri,psixologiya üzrə fəlsəfə doktoru, dosent

***Hamlet Vəli oğlu İlyasov -*** Bakı Dövlət Universitetinin Qazax filialı, “Pedaqoji fənlər” kafedrasının üdiri, pedaqogika üzrə fəlsəfə doktoru

Respublikamızda təhsilin, o cümlədən ali təhsilin inkişaf etdirilməsi, onun dünyanın qabaqcıl ölkələrinin təhsil sistemləri səviyyəsinə çatdırılması istiqamətində səmərəli tədbirlər görülür. Azərbaycan Respublikası Prezidentinin milli təhsilimizin təkmilləşdirilməsi istiqamətində imzaladığı fərman və sərəncamlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin bu istiqamətdəki fəaliyyəti deyilənlərə əyani sübutdur. Yeni pedaqoji təfəkkür şəraitində yüksəkixtisaslı müəllim kadrlarının hazırlanması ali təhsilin qarşısında dayanan mühüm vəzifələrdən biridir. Bəzi xarici ölkələrdə müəllim kadrlarının hazırlanması məqsədilə pedaqoji internaturanın imkanlarına müraciət edirlir. Bu proqramda həmin imkanların araşdırılması, pedaqoji internaturanın mahiyyəti, məqsəd və vəzifələri, fəaliyyətinin əsas istiqamətləri, işin məzmunu, xarici təcrübə, internaturaya qəbul qaydaları və s. öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.

Aydındır ki, pedaqoji - peşə təcrübəsi müəllim hazırlığının əsas hissəsidir. Metodiki bilik müəllim peşə fəaliyyəti ilə, müəllim şəxsiyyətinin və onun yaradıcılıq fəaliyyəti ilə six əlaqədədir. Pedaqoji kadr hazırlığının ən vacib sahələrindən biri pedaqoji təcrübədir. Pedaqoji təcrübə prosesində tələbələrin ali məktəblərdə aldıqları bilik dərinləşir, möhkəmlənir, tələbələr pedaqoji iş sahəsində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Mütəxəssis hazırlığı məhz praktik yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində əməli icra olunaraq mənimsənilir. Bu yolla pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin vərdiş halında möhkəmlənməsinə səbəb olur. Pedaqoji təcrübə kadrları bir mütəxəssis kimi tam formalaşdırır. Pedaqoji təhsil illəri ərzində tələbələr müxtəlif yaşlı və qabiliyyətli uşaqlarla geniş öyrənmə təcrübələrini əhatə edən ixtisas üzrə tapşırıqları yerinə yetirdikcə, onların peşə məsuliyyətləri də tədricən artır.

Proqramda aşağıdakı məsələləri əhatə edən təkliflər verilmişdir:

-Məktəb sənədlərinin qanunverici sənədlər və dövlətin yürütdüyü təhsil siyasəti baxımından araşdırılması,

-direktorun fəaliyyət planının araşdırılması,

-pedaqoji şuranın fəaliyyət planının araşdırılması,

-metodbirləşmənin fəaliyyət planlarının araşdırılması,

-sinif rəhbərinin və uyğun fənn müəlliminin fəaliyyət planının araşdırılması,

-məktəbdə mövcud vəziyyətin araşdırılması,

-təhsilin vəziyyəti,

-sinifdə mövcud vəziyyətin araşdırılması,

-şagirdlərin idrak səviyyəsi və dərketmə üsullarının araşdırılması,

-şagirdin hazırlıq səviyyəsi və inkişaf dinamikası,

-perspektiv planlaşmanın araşdırılması və yeni nümunələrin hazırlanması.

Proqram ilk növbədə müəllim hazırlığı üçün nəzərdə tutulsa da o, əməkdaşlıq edən müəllimlər və məktəblər, eləcə də tələbələrin özləri üçün də faydalı ola bilər.

Pedaqoji internaturanın öyrənilməsi nəticəsində tələbə

**Bilməlidir**:

- fənnin (məşğələnin) ümumi nəzəri əsaslarını və tədrisi metodikasını, fənn üzrə təlimin məzmunu və təşkili prinsiplərini, tərbiyə işlərinin metodikasını;
- sinifdənxaric tədbirlərin aparılması metodikasını;
- əməyin elmi təşkilini, metodik iş formalarını;
- məktəb sənədləri və onlarla iş metodikasını;
- tədris avadanlığından istifadə zamanı təhlükəsizlik qaydalarını.və.s.

**Bacarmalıdır:**

- pedaqoji vəziyyət və fənnin spesifik xüsusiyyətləri nəzərə alınmaqla təlim məşğələri aparmağı, fənlərarası əlaqələr qurmağı, təlim prosesində İKT-dən istifadə etməyi;
- tədris materialını planlaşdırmağı, dərsin tipini, fənnin tədrisi üçün metod və vasitələri müəyyənləşdirməyi;
- fərdi və kollektivin psixoloji xarakteristikasını müəyənləşdirməyi, sinfin (yaş qruplarının) idarə edilməsində bu xüsusiyyətləri nəzərə almağı;
- tərbiyəvi işlər aparmağı;
- tədris avadanlığından istifadə zamanı təhlükəsizlik qaydalarına riayət etməyi;
- dərsin (məşğələnin) pedaqoji, psixoloji və metodik təhlilini aparmağı.

**Yiyələnməlidir:**

-tərbiyəvi işlərin aparılması metodikasına;

-fərdi və kollektivin psixoloji xarakteristikasını tərtib etmək bacarığına;

-fənni tədrisi üçün metod və vasitələri müəyyənləşdirmək bacarığına;

-sinifdənxaric işlərin aparılması metodikasına, təlim üsullarından səmərəli istifadə metodikasına;

-məktəb sənədləri ilə iş metodikasına;

-tədris prosesində istifadə etmək üçün elmi-metodik və didaktik vəsaitlər hazırlamaq bacarığına.və.s

Pedaqoji internaturanın nəticələri 100 ballı sistemlə qiymətləndirilir. Pedaqoji internaturanın nəticələrinin çoxballı sistemlə qiymətləndirilməsi kafedramız tərəfindən hazırlanmış pedaqoji internatura ilə bağlı «İşçi proqramı»nın internaturada iştirak edən tələbələrə, müəllimlərə kömək məqsədi ilə, tələbənin yekun balının hesablanması meyarları və metodikası ilə onları tanış etmək, internaturanın keçirilməsinə dair müxtəlif metodik

göstərişlər, tövsiyələr vermək məqsədi ilə tərtib olunmuşdur. Pedaqoji internatura zamanı tələbələrin öyrəndikləri ictimai-siyasi, psixoloji-pedaqoji, elmi-nəzəri və metodik biliklərin əlaqələndirilməsi və kompleks tətbiqi üçün geniş imkan və şərait yaranır.

İnternaturada iştirak edən tələbələr uşaqlarla aparılan təlim-tərbiyə işlərinin növləri, forma və metodları, məzmun və xüsusiyyətləri ilə bağlı müxtəlif məsələlərlə qarşılaşır və bu prosesdə iştirak edirlər. Bu baxımdan pedaqoji internaturanın qarşısında aşağıdakı bir sıra mühüm ***vəzifələr*** durur:

- tələbələrdə müxtəlif peşə keyfiyyətləri və pedaqoji özünütəhsilə tələbatların tərbiyə edilməsi;
- tərbiyəçi peşəsinə məhəbbət, davamlı və dərin peşə maraq və meyillərinin tərbiyə edilməsi;
- konkret pedaqoji vəzifələrin yerinə yetirilməsi zamanı ictimai-siyasi, psixoloji-pedaqoji və ixtisas biliklərinin möhkəmləndirilməsi, dərinləşdirilməsi və ümumiləşdirilməsi;
- gələcək müəllimlərdə (tərbiyəçilərdə) peşə bacarıq və vərdişlərinin formalaşması və inkişaf etdirilməsi;
- pedaqoji fəaliyyətə yaradıcı və təşkilatçılıq mövqeyindən yanaşmanın öyrədilməsi;
- məktəblərdə (məktəbəqədər təhsil müəssisələrində) təlim-tərbiyə işlərinin mövcud vəziyyəti və qabaqcıl pedaqoji təcrübə ilə tanışlıq;
- uşaqların təlim-tərbiyəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində məktəbəqədər təhsil müəssisələrinə yaxından köməklik göstərilməsi;

Bu vəzifələrin yerinə yetirilməsi o zaman daha səmərəli nəticələrə səbəb olur ki, pedaqoji təcrübə yüksək ideya-siyasi istiqamətdə, öyrədici, tərbiyəedici və inkişafetdirici xarakterdə, kompleks yanaşma, sistemlilik və varisliyin gözlənilməsi şəraitində aparılsın.

"Pedaqoji internatura" aşağıdakı ixtisasları əhatə edir:

1. 050101 - Azərbaycan dili və ədəbiyyatı müəllimliyi"
2. 050102 - Biologiya müəllimliyi
3. 050103 - Coğrafiya müəllimliyi
4. 050104 - Dil və ədəbiyyat müəllimliyi (İngilis dili)
5. 050105 - Fizika müəllimliyi
6. 050106 - Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi
7. 050107 - İbtidai sinif müəllimliyi
8. 050108 - İnformatika müəllimliyi
9. 050109 - Kimya müəllimliyi
10. 050110 - Kimya və biologiya müəllimliyi
11. 050112 - Məktəbəqədər təhsil

12. 050113 - Musiqi müəllimliyi
13. 050114 - Riyaziyyat müəllimliyi
14. 050115 - Riyaziyyat və informatika müəllimliyi
15. 050116 - Tarix müəllimliyi
16. 050117 - Tarix və coğrafiya müəllimliyi
17. 050118 - Təhsildə sosial-psixoloji xidmət
18. 050119 - Təsviri incəsənət müəllimliyi
19. 050120 - Texnologiya müəllimliyi
20. 050121 - Xarici dil müəllimliyi (ingilis, fransız, rus, alman)

**Pedaqoji internatura üçün təxmini tematik planı**

| S\|s | Bölmə | Mövzular | |
|---|---|---|---|
| 1 | 1. Məktəb sənədlərinin qanunverici sənədlər və dövlətin yürütdüyü təhsil siyasəti baxımından araşdırılması | 1.1.Məktəb nizamnaməsinin araşdırılması | 2 həftə |
| | | 1.2.Direktorun fəaliyyət planının araşdırılması | |
| | | 1.3.Pedaqoji şuranın fəaliyyət planının araşdırılması | |
| | | 1.4.Direktor müavinlərinin fəaliyyət planının araşdırılması | |
| | | 1.5.Metodbirləşmə-nin fəaliyyət planlarının araşdırılması | |
| | | 1.6.Sinif müəlliminin fəaliyyət planının araşdırılması | |
| | | 1.7.Hesabat | |
| 2 | 2. Məktəbdə mövcud vəziyyətin araşdırılması | 2.1.Şərait (yeri, əhalisi, sosial vəziyyəti) | 2 həftə |
| | | 2.2.Mühit (mənəvi-psixoloji) | |
| | | 2.3.Maddi-texniki baza | |
| | | 2.4.Təhsilin vəziyyəti | |
| | | 2.5.Inkişafın dinamikası | |
| | | Hesabat | |
| 3 | 3.Sinifdə mövcud vəziyyətin araşdırılması | 3.1.Şagirdlərin fiziki və fizioloji sağlamlığın araşdırılması | 3 həftə |
| | | 3.2.Şagirdlərin idrak səviyyəsi və dərketmə üsullarının araşdırılması | |
| | | 3.3.Şagirdin psixi inkişafı və mənəvi-psixoloji vəziyyəti | |
| | | 3.4.Şagirdlərin sosial vəziyyəti | |
| | | 3.5.Şagirdin hazırlıq səviyyəsi və inkişaf dinsmikası | |
| | | 3.6.Şagirdin maraqlarının araşdırılması | |
| | | 3.7.Etnik, dini irqi fərqliliklər | |
| | | Hesabat | |
| 4. | 4.Təlim və tədrisin təşkili metodologiyasi | 4.1.Perspektiv planlaşmanın araşdırılması və yeni nümunələrin hazırlanması | 13 həftə |
| | | 4.2.Cari planlaşmanın təhlili, tərtibi. | |
| | | 4.3.Tələbələrin qarşılıqlı dərs dinləməsi və təhlili. | |
| | | hesabat | |
| 5. | 5.Görülmüş işləri hesabatı | | |

***BÖLMƏ 1. Məktəb sənədlərinin qanunverici sənədlər və dövlətin yürütdüyü təhsil siyasəti baxımından araşdırılması***

***1.1 Məktəb nizamnaməsinin araşdırılması***

Məktəbin qarşısında duran məqsədlər, vəzifələr, təlimin təşkilinə verilən tələblər, müəllim şagird münasibətlrinin təhsil fəlsəfələri və hüquqi sənədlər (Konstitusiya, Təhsil haqqında Azərbaycan Respublikasının qanunu, Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələr, eləcə də İslahat Proqramı) baxımından araşdırılması

***1.2 Direktorun fəaliyyət planının araşdırılması***

Məktəb direktorunun fəaliyyət planının Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimati məktublarının nəzərə alınması və icrası, təlim-tədris-tərbiyə prosesində iştirak edəcək qrumların fəaliyyət planları ilə əlaqəlilik və varislik baxımından araşdırılması.

***1.3 Pedaqoji şuranın fəaliyyət planının araşdırılması***

Pedaqoji şuranın fəaliyyət planının Elm və Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimati məktublarının nəzərə alınması və icrası, məktəb direktorunun fəaliyyət planı ilə əlaqəliliyi və varisliyi baxımından araşdırılması.

***1.4 Direktor müavinlərinin fəaliyyət planının araşdırılması***

Direktor müavinlərinin fəaliyyət planlarının Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimati məktublarının nəzərə alınması və icrası, pedaqoji şuranın və məktəb direktorunun fəaliyyət planı ilə əlaqəliliyi və varisliyi baxımından araşdırılması.

***1.5 Metodbirləşmənin fəaliyyət planlarının araşdırılması***

Metodbirləşmə sədrinin fəaliyyət planlarının Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimati məktublarının nəzərə alınması və icrası, pedaqoji şuranın, məktəb direktoru və direktor müavinlərinin fəaliyyət planı, habelə fənn metodistinin fəaliyyət planı ilə əlaqəliliyi və varisliyi baxımından araşdırılması.

***1.6 Sinif müəlliminin fəaliyyət planının araşdırılması***

Fənn müəlliminin fəaliyyət planlarının Təhsil Nazirliyinin fəaliyyət planı, əmr, sərəncam və təlimati məktublarının nəzərə alınması və icrası, pedaqoji şuranın, məktəb direktoru, direktor müavinləri və metodbirləşmənin fəaliyyət planı ilə əlaqəliliyi və varisliyi baxımından araşdırılması.

### *1.7 Hesabat*

Dövlət səviyyəsində həyata keçirilən təhsil siyasətinin məktəb direktoru, direktor müavinləri, pedaqoji şura, metodbirləşmə sədri, fənn müəlliminin (rəhbərinin) fəaliyyət planlarında mərhələdən-mərhələyə xüsusiləşərək öz əksini tapması, həmin planlar arasında əlaqəlilik və varisliyin gözlənilməsi baxımından hazırladıqları hesabat (PP təqdimat) üzrə məktəb kollektivi qarşısında çıxışın edilməsi.

## *BÖLMƏ 2. Məktəbdə mövcud vəziyyətin araşdırılması*

### *2.1 Şərait (yeri, əhalisi, sosial vəziyyəti)*

Yerləşdiyi məkan; şagirdlərin sayı; şagirdlərin sosial vəziyyəti (valideynlərin təhsil səviyyəsi, iş yerləri və s. məlumatlar)

### *2.2 Mühit (mənəvi-psixoloji)*

Məktəb rəhbərliyinin aparılan islahatılarla bağlı məlumatlılıq səviyyəsi və münasibəti;

Məktəb rəhbərliyinin məktəbin idarə edilməsində: (dərs yükünün bölünməsində, dərs cədvəlinin müəyyən edilməsində, valideynlərlə işin təşkilində, məktəbin kollektiv idarə edilməsində, ədalətin və şəffaflığın təmin olunmasında və s.) əldə rəhbər tutduğu prinsiplər.

Məktəb kollektivinin üzvlərinin qarşılıqlı münasibətlərinin və əməkdaşlığının səviyyəsi)

### *2.3 Maddi-texniki baza*

-məktəbin binasının, koridorlarının, sinif otaqlarının akt və idman zalının təmir və tərtibat baxımından vəziyyəti;

-Məktəb kitabxanasının təmir, tərtibat və təchizat baxımından, eləcə də oxucuların cəlbi baxımından vəziyyəti, Məktəbin kompyuter laboratoriyalarında texniki avadanlığın sayı, onların işləkliyi, keyfiyyəti, saxlanma şəraiti,vaxtlı-vaxtında müvafiq xidmətlərin göstərilməsi, otaqdan səmərəli istifadənin vəziyyəti;

### *2.4 Təhsilin vəziyyəti*

-Buraxılış imtahanlarının nəticələrinə görə əldə edilən nəticələrin səviyyəsi;

-Həmin nəticələrin oxşar şəraitli digər məktəblərin nəticələri ilə müqayisəsi;

- Müvafiq qərarların qəbul edilməsi.

### *2.5 Inkişafın dinamikası*

-Beş il ərzində məktəbin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər.

-Beş il ərzində məktəbin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin digər məktəblərin nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi

***2.6 Hesabat***

1.Məktəb direktoru, pedaqoji şura, direktor müavinləri, metodbirləşmə sədrinin fəaliyyət planları hazırlanarkən məktəbdəki mövcud vəziyyətin nəzərə alınması baxımından təhlili.

2. Fəaliyyətin planlaşdırılmasına verilən tələblərin nəzərə alınması baxımından fəaliyyət planlarının təhlili.

3.Aşkar edilmiş boşluqlarla bağlı təkliflərin verilməsi

4.Nəticələri əks etdirən PP təqdimatın məktəb kollektivi qarşısında təqdim edilməsi.

***BÖLMƏ 3. Sinifdə mövcud vəziyyətin araşdırılması***

***3.1 Şagirdlərin fiziki və fizioloji sağlamlığın araşdırılması***

Şagidlərin zəif görməsi, pis eşitməsi, nitq qüsuru, dayaq-hərəkət aparatlarındakı problemlər baxımından xüsusi qayğıya ehtiyacının olub - olmamasının müəllim tərəfindən araşdırılması və diqqət mərkəzində saxlanılması. Şagirdlərin oturacağı sıranın və yerin müəyyən edilməsi, parta yoldaşının seçilməsi, təlim tapşırıqlarının hazırlanması zamanı bu amillərin nəzərə alınması. Digər uşaqların həmin uşağa pozitiv münasibətlərinin qurulmasının təşkil edilməsi.

***3.2 Şagirdlərin idrak səviyyəsi və dərketmə üsullarının araşdırılması***

Şagirdin idrak səviyyəsi haqqında qənaətlərə gələrkən diaqnostik, formativ və summativ qiymətləndirmənin nəticələrindən istifadə. Əqli inkişafda ləngimələr, idrakın inkişafının səviyyəsi, dərketmənin üsullarının müəyyən edilməsi. Nəticələrdən təlimi təşkil edərkən istifadənin yolları.

***3.3 Şagirdin psixi inkişafı və mənəvi-psixoloji vəziyyəti***

Psixi inkişafda ləngimələri aşkar etmək imkanı verən araşdırmaların aparılması. Təlim prosesində belə halların nəzərə alınması. Şagirdin mənəvi-psixoloji stabiliyinin təmin olunması və sağlam mənəvi-psixoloji iqlimin yaradılması üçün nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi.

### *3.4 Şagirdlərin sosial vəziyyəti*

Şagirdlər tapşırıqları yerinə yetirmək, oxu və yazı bacarıqları baxımından geriləmək, ətrafdakılara qarşı aqressivlik göstərmək, zorakılığa meyilli olmaq, dərslərdən yayınmaq və bu halların sinifdəki digər şagirdlərin təlim və tərbiyəsinə mənfi təsir göstərməsinin qarşısının alınması üçün onların sosial vəziyyətinin araşdırılması. Şagirdin sosial vəziyyətindən irəli gələn mənəvi-psixoloji və intellektual fərqlərin nəzərə alınması, onların inkişaf etdirilib, sinfin və məktəbin ümumi səviyyəsinə çatdırmaq üçün işlərin aparması məqsədi ilə sosial fərqlərin araşdırılması və diqqət mərkəzində saxlanılması.

### *3.5 Şagirdin hazırlıq səviyyəsi və inkişaf dinsmikası*

**Şagirdlərin hazırlıq vəziyyəti** (müqayisə, dəyərləndirmə)

-Summativ qiymətləndirmənin nəticələrinə görə hər bir şagirdin əldə etdiyi nailiyyətin səviyyəsi;

-Həmin nəticələrin oxşar səviyəli digər şagirdin nəticələri ilə müqayisəsi;

-Ümumilikdə sinfin nəticələrin oxşar səviyəli digər sinfin nəticələri ilə müqayisəsi;

**Inkişafın dinamikası** *(müqayisə, dəyərləndirmə)*

-Son aylar,1,2,3,4 il ərzində hər bir şagirdin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər.

-Həmin müddət ərzində şagirdin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin oxşar səviyyəli digər şagirdin nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi.

Son aylar, 1,2,3,4 il ərzində şagirdin nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin oxşar səviyyəli digər sinfin nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi.

### *3.6 Şagirdin maraqlarının araşdırılması*

Təlim təşkil edilərkən şagirdin maraq və zövqünün nəzərə alınması, onların nailiyyət keyfiyyətinin yüksəldilməsinin təmin olunması baxımdan şagirdlərin maraqlarına görə qruplaşdırılması və maraqlara müvafiq də tapşırıqların hazırlaması üçün araşdırmaların aparılması.

### *3.7 Etnik, dini irqi fərqliliklər*

Milli mentalitetlər, dil problemləri, digər uşaqlarla ünsiyyətin qurulması, mənəvi dəyərlərinə hörmətin nəzarətdə saxlanılması üçün araşdırmaların aparılması.

***3.8 Hesabat***

1. Aparılmış araşdırmaların nəticələri və onlara əsasən hazırlanmış şagird kartlarından ibarət kartotekanın hazırlanması və məktəb kollektivi qarşısında təqdim edilməsi.

2. Sinifdə mövcud vəziyyət nəzərə alınmaqla hazırlanmış fəaliyyət planının təqdim edilməsi.

***BÖLMƏ 4. Təlim və tədrisin təşkili metodologiyasi***

***4.1. Perspektiv planlaşmanın araşdırılması və yeni nümunələrin hazırlanması***

1.Sinifdəki mövcud vəziyyət nəzərə alınmaqla standartların reallaşdırılması baxımından sinif müəlliminin bütün fənlər üzrə tərtib etdiyi perspektiv planlaşmanın araşdırılması, boşluqların müəyyən edilməsi, təkliflərin hazırlanması;

2. Sinifdəki mövcud vəziyyət nəzərə alınmaqla standartların reallaşdırılmasına xidmət edən perspektiv planlaşmanın hazırlanması və təqdim edilməsi.(Müxtəlif qruplarda müxtəlif fənlər üzrə)

***4.2. Cari planlaşmanın təhlili, tərtibi***.

1.Fənn müəlliminin apardığı dərsin müşahidə edilməsi.

-təlimin təşkilninə verilən tələblərin nəzərə alınması baxımından;

-reallaşdırılması nəzərdə tutulan məzmun staandartları baxımından;

-təlimdə bütün digər məsələlərin məqsədin reallaşdırılmasına xidmət etməisi baxımından;

-Inteqrasiya imkanlarının nəzərə alınması baxımından;

-məqsədəmüvafiuq qiymətləndirmənin aparılması baxımından;

2. Aşkar edilmiş problemlərin aradan qaldırılması üçün təkilflərin hazırlanması.

3. Həmin mövzu üzrə dərs planının hazırlanması.

***4.3 Tələbələrin qarşılıqlı dərsdinləməsi və təhlili.***

Müxtəlif fənnlər üzrə siniflərə paylanmış tələbə qruplarının növbə ilə nümayiş etdirdiyi dərslərin fənn müəllimlər, rəhbər işçilər və yoldaşları tərəfindən müşahidə edilməsi, dərslərin müzakirə edilməsi, aşkar edilmiş boşluqların aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanması, dərslərdə iştirak edən metodistin, pedaqoqun, psixoloqun, digər şəxslərin, yenı interaktiv metodologiyanın tətbiqi ilə bağlı təcrübənin öyrənilməsi, digər məsələlər geniş araşdırılmalı və yekun qiymətləndirmə aparılır.

**İNTERNATURADA İŞTİRAK EDƏN TƏCRÜBƏÇİ TƏLƏBƏLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ-**

əsasən aşağıdakılardan ibarətdir:

- pedaqoji internatura proqramında nəzərdə tutulan bütün təlim-tərbiyə işlərini vaxtında yerinə yetirmək;
- fiziki, əqli, əxlaqi, əmək, estetik və ekoloji tərbiyənin vəhdətini təmin etməklə təlim-tərbiyə işlərini həyata keçirmək;
- yüksək əxlaqi keyfiyyətlərə malik, fəal, işində dərin maraq göstərən, uşaqları və pedaqoji peşəni sevən gənc mütəxəssis kimi göstərə bilmək;
- mütəşəkkilliyi, intizamı və əməksevərliyi ilə uşaqlara nümunə olmaq;
- uşaqlarla iş prosesində özünün peşə ustalığını nümayiş etdirməyə səy göstərmək;
- təhsil müəssisəsi kollektivinin həyatında fəal iştirak etmək;
- qarşıya çıxan bütün suallar üzrə pedaqoji internatura rəhbərlərinə, metodistə, müəssisənin rəhbərinə, tərbiyəçilərə müraciət etmək;
- təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə, təcrübə işinin səmərəli təşkilinə dair öz təkliflərini vermək;
- təhsil müəssisəsində həyata keçirilən tədbirlərdə iştirak etmək;
- metodkabinetdəki tədris-metodiki vasitələrdən istifadə etmək.və.s

Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbələrin üzərinə böyük ***məsuliyyət*** düşür. Onlar pedaqoji təcrübə proqramında nəzərdə tutulan bütün işləri vaxtında və keyfiyyətlə yerinə yetirməli, yüksək zehni və mənəvi keyfiyyətləri, mütəşəkkilliyi və intizamı ilə şagirdlərə nümunə olmalıdırlar. Tələbə təcrübə müddətində məktəbin ictimai həyatında fəallıq göstərməlidir.

Hər bir tələbə pedaqoji internatura dövründə aşağıdakı ümumi qaydalara əməl etməlidir:

1. Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbələrin hər biri internatura müddətinin əvvəlindən axırınadək məktəbdə pedaqoji kollektivin üzvi hesab edilir. Buna görə də o, özünü dərslərdə və dərsdənkənar vaxtlarda müəllim-tərbiyəçi kimi aparmalıdır.

2. Tələbə dərslərin başlanmasından qabaq məktəbə gəlir və gündə 4 saat orada olur. Müəyyən üzürlü səbəbdən təcrübəyə gələ bilmədikdə, onda qrup rəhbərinə məlumat verir və müvafiq sənəd (məs.xəstəlik arayışı) təqdim edir.

3. Təcrübəçi tələbə məktəbin *daxili intizam qaydalarına* ciddi əməl etməlidir:

- məktəbə təmiz, səliqəli paltarda gəlməli, məktəbdə palto və baş geyimi ilə gəzməməlidir;
- məktəbin müəllimləri və xidmətçi heyyəti ilə, habelə şagirdlərlə həmişə hörmətli və nəzakətli rəftar etməli, onlara “siz” deyə müraciət etməlidir;

- zəngdən sonra dərsə girmək, dərs zamanı söhbət etmək, dərsin ortasında sinifdən çıxmaq olmaz;

- müəllimlər otağında, məktəbin dəhlizində bərkdən danışmağa, yersiz hərəkətlərə yol verməməlidir;

- məktəbdə siqaret çəkmək qadağandır.

4. Tələbə pedaqoji internaturanın proqramını yaxşı bilməli və onu tamamilə yerinə yetirməlidir. O, hər həftənin axırında qarşıdakı həftə ərzində *görəcəyi təlim-tərbiyə işlərinin planını* (fərdi plan) tərtib edib, qrup rəhbərinin təsdiqinə verir. Bir gündə nəzərdə tutulan təcrübənin 4 saatının 2 saatı təlim işlərinə (dərslərin müşahidəsi, sınaq dərsi demək, dərsləri müzakirə etmək və s.), I saatı pedaqoji işlərə (sinifdə tərbiyə tədbirlərinin hazırlanması, keçirilməsi və müzakirəsinə, pedaqoqdan məsləhət almağa), I saatı isə psixoloji işə (şagirdlərin və sinif kollektivinin müşahidəsinə, psixoloji məsləhətlərə və s.) ayrılır. Həftə ərzində tələbə fərdi planda müəyyən edilmiş bütün tədbirləri yerinə yetirməlidir.

5. 20 həftəlik pedaqoji internatura müddətində müəllimlik fəaliyyəti ilə yanaşı hər tələbə 15 sınaq-nümunə dərsi deməlidir. Hər tələbə pedaqoji internaturanın I hissəsində (10 həftə ərzində) 7 (qoşa ixtisaslarda 3+4 və ya 4+3 olmaqla), II hissəsində (10 həftə ərzində) 8 (qoşa ixtisaslarda 4+4 və ya 5+3 olmaqla) sınaq-nümunə dərsi deməlidir.

6. *Yoxlama (sınaq) dərslərinə* hazırlaşarkən tələbə dərsə 6-7 gün qalmış fənn müəllimindən mövzunu almalı və onun köməyi ilə icmal və ya plan tərtib etməlidir. Dərsə 2-3 gün qalmış icmal və ya plan fənn müəlliminin və ixtisas kafedra metodistinin təsdiqinə verilməlidir. İcmal təsdiq edilməyincə tələbə dərsə buraxılmır.

7. Qrafik üzrə nəzərdə tutulan gün tələbə yoxlama dərsi keçməlidir. Fənn müəllimi, metodist və 4-5 tələbə onun dərsində iştirak edib, müvafiq qeydlər götürürlər. Dərs qurtardıqdan sonra (və ya səhəri gün) onun təhlili keçirilir. Müzakirə zamanı dərs təhlil edilərək (müsbət və mənfi cəhətləri qeyd edilməklə) qiymətləndirilir.

8. Planda nəzərdə tutulmuş *sinifdənxaric tərbiyə işlərini* yerinə yetirərkən tələbə:

- sinif rəhbərinin, habelə pedaqogika və psixologiya kafedrası nümayəndəsinin rəhbərliyi altında seçmiş olduğu sinifdənkənar tədbirin planını və ya icmalını tərtib edir;

- sinif rəhbərinin göstərişinə əsasən nəzərdə tutulmuş tərbiyə tədbirinin həyata keçirilməsi üçün lazım olan bütün təşkilati-hazırlıq işlərini yerinə yetirir;

- nəzərdə tutulan sinifdənxaric tərbiyə tədbirlərini (qrafik üzrə müəyyən edilmiş gün və saatlarda) sinif rəhbəri və pedaqogika kafedrası nümayəndəsinin iştirakı ilə yerinə yetirir;

- hər bir tələbənin icra etdiyi tərbiyə tədbirləri (əxlaqi və ya elmi söhbət, disput, kitab müzakirəsi, toplanış, iməclik, ictimai-faydalı əmək və s.) sinif rəhbərinin, pedaqoqun və tələbələrin iştirakı ilə müzakirə və təhlil edilərək qiymətləndirilir.

9. Təcrübə müddətində tələbə bir şagird üzərində və ya sinif kollektivi üzərində gündəlik *psixoloji müşahidələr* aparır, fərdi söhbətlər keçirir, lazım gəldikdə anket sorğusu təşkil edir. Müşahidə və digər metodlarla toplanan faktları xüsusi dəftərdə (psixoloji müşahidə dəftərində) qeyd edir. Pedaqoji internaturanın sonunda həmin faktların ümumiləşdirilməsi əsasında psixoloji - pedaqoji xarakteristika tərtib edir.

10. Tələbə internatura müddətində məktəb və pedaqoji rəhbərlərin göstərişlərini yerinə yetirməlidir. O, metodistlərin, pedaqogika və psixologiya kafedrası nümayəndəsinin fərdi və qrupla keçirdiyi söhbətlərdə, məsləhət və treninqlərdə, müəllim və tələbələrin birgə istehsalat müşavirələrində, internatura ilə əlaqədar təşkil edilən başlanğıc və yekun konfranslarda iştirak etməlidir.

11. Hər bir tələbə internatura müddətində müəllimlik fəaliyyəti üçün zəruri olan *peşə keyfiyyətlərinə* - pedaqoji bacarıq, qabiliyyət və səriştələrə (didaktik, akademik, konstruktiv, kommunikativ, təşkilatçılıq qabiliyyətlərinə) yiyələnməyə çalışmalıdır.

12. Pedaqoji internaturada iştirak etməyən və ya internaturaya ayrılan saatların 25-faizi qədər təcrübədən yayınan, müvafiq bal (ən azı 51 bal) toplaya bilməyən tələbələr rektorluğun əmri ilə növbəti ildə ödənişli əsaslarla təkrar təcrübə keçir.

13. Pedaqoji internaturanın *ilk həftəsində* tələbə aşağıdakı işləri görməlidir:

- Məktəblə və məktəb sənədləri ilə tanış olmaq;
- Məktəb rəhbəri ilə söhbət, direktor müavinətlərinin işi ilə tanış olmaq;
- Məktəb şagird təşkilatının və valideyn komitəsinin işi ilə tanış olmaq;
- Təhkim olunduğu sinifdə sinif rəhbərinin iş planı ilə tanışlıq (üzünü köçürməklə);
- Təhkim olunduğu sinifdə fənn müəlliminin təqvim-tematik planı fənnin proqramı və dərsliklərlə, sinif jurnalı ilə tanışlıq (planın üzünü köçürməklə);
- Fərdi iş planı və tərbiyə işlərinin təqvim planını hazırlamaq;
- Deyiləcək dərslərin cədvəlini köçürmək, mövzularını müəyyən etmək;
- Təhkim olunduğu sinfin dərslərində (gündə ən azı 3 dərsdə) iştirak etmək;
- Fənn müəllimi və metodistlə məslətləşərək ilk sınaq dərsinin icmalını hazırlamaq.

Sonrakı həftələrdə gündəlikdə göstərilən qaydalar və şərtlərlə pedaqoji internaturanı davam etmək lazımdır. Hər gün görülən işləri (tədris, tərbiyə və psixoloji işlər) verilmiş “Gündəlik” nümunəsi əsasında (səh 15) yazmaq lazımdır.

14. Pedaqoji internaturanın sonunda tələbələr aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Görülmüş işlərə dair hesabat
2) Deyilmiş dərslərin icmal və protokalları

3) Keçirilmiş tərbiyəvi tədbirlərin mətni (əxlaqi söhbət, disput və s.)

4) Psixoloji xasiyyətnamə (şagird və ya sinif üçün)

Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbələr eyni zamanda, öz müşahidələrinin nəticələrini, uşaqlarla apardığı təlim-tərbiyə işlərinin təhlilini gündəlikdə (vahid formada), bundan əlavə, apardığı bütün məşğələlərin, tərbiyəvi tədbirlərin, ayrı-ayrı məşğələlər üzrə məşğələdənkənar tədbirlərin plan-konspektlərini isə ayrıca dəftərdə əks etdirməlidir.

Pedaqoji internaturadan kənar edilmiş, yaxud pedaqoji internatura prosesində gördüyü işi qeyri-məqbul qiymətləndirilmiş təcrübəçi tələbə həmin semestrə aid tədris planını yerinə yetirməmiş hesab olunur. Fakültə şurasının qərarı ilə həmin təcrübəçi tələbə üçün universitetdə tədris işindən ayrılmamaqla təkrar təcrübə müəyyənləşdirilə bilər.

**Təcrübəçi tələbələrin görəcəyi işlər**

**I**. Əyani şöbənin IV kurs tələbələri 14 həftə müddətində məktəblərdə (şəhər körpələr evi və uşaq bağçalarında) pedaqoji internatura keçirlər.

**II**. Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbə öz fərdi iş planına uyğun olaraq məktəbdə hər gün 6 saat işləməlidir. Pedaqoji internatura müddətində görüləcək işlərin planını təcrübəçi tələbə metodist və fənn müəllimlərin nəzarəti altında (tərbiyəçilərlə) birlikdə hazırlayırlar.

**III**. Birinci həftə hazırlıq həftəsi adlanır. Təcrübəçi tələbələr bu həftədə məktəbdə, təhkim olunduğu qrup otaqları və müəssisədə həyata keçirilən təlim-tərbiyə işləri ilə tanış olurlar. Sonra təcrübəçi tələbələr metodistin təsdiq etdiyi plana uyğun olaraq təlim-tərbiyə işləri aparmağa başlayırlar.

Pedaqoji internatura müddətində tələbələr fənn müəllimləri (tərbiyəçilərlə) ilə birlikdə təlim-tərbiyə işini, yerinə yetirirlər. Belə ki, tələbələr pedaqoji-psixoloji tapşırıqları icra edir, həmçinin təlim-tədris-tərbiyə müəssisələri ilə birgə faydalı işlər aparırlar.

## İNTERNATURANIN TƏŞKİLİ

**İxtisas üzrə metodistin görəcəyi işlər**

- pedaqoji internaturanın başlanğıc və yekun konfransında iştirak etmək;
- təcrübəçi - tələbələri 2-3 nəfərdən artıq olmamaq şərti ilə qruplara təhkim edir və tələbələrdən bir nəfərini qrup nümayəndəsi seçir;
- üç gün müddətinə görüləcək işlər haqqında prespektiv və cari planlaşma apararaq cədvəl tərtib edib bir nüsxəsini kafedraya, Təcrübə və karyera şöbəsinə, bir nüsxəsini tədris departamentinə təqdim edir;

- tərbiyəçilərlə birlikdə aparılan planlaşmanı təsdiq edərək, məşğələdənkənar işlərin forma və mövzularını müəyyənləşdirir;

- pedaqoji internatura gündəliyinin tərtib edilməsində, təlim metodunun, məşğələnin müəyyənləşdirilməsində və ümumiyyətlə qarşılıqlı dərs dinləmələrdə, müstəqil pedaqoji fəaliyyət zamanı tədris prosesinə hazırlıq üçün tələbələrə müvqafiq məsləhətlər verir, onların fəaliyyət planlarını yoxlayıb təsdiq edir;

- nümunəvi tədris məşğələlərini dinləyir, onları tələbələr və fənn müəllimləri, pedaqoq və psixoloqlarla birlikdə təhlil edir və qiymətləndirir;

- təcrübəçi tələbələrin məşğələdənkənar tədbirlərdə iştirak etmələrinə nail olur, bunların təhlilini aparır;

- internatura müddətində pedaqoqun, psixoloqun, məktəbdə çalışan bütün işçilərin fəaliyyətini əlaqələndirir və bütün işlərə, o cümlədən nizam – intizama, pedaqoji internatura sənədlərinin hazırlanmasına, jurnalın yazılmasına və s. nəzarət edir;

- sonda tələbələrin pedaqoji internaturaya aid sənədlərini yoxlayıb qəbul edir və bunları jurnalla birlikdə fakültə və ixtisas üzrə yaradılmış müdafiə şurasına təqdim edilir. Nəticədə bütün sənədlər aidiyyatı kafedralara təhvil verir;

- pedaqoji internaturanı təkmilləşdirmək məqsədilə təkliflər verir;

- tələbələrə pedaqoji internaturada nəzəri hissəyə aid yekun qiyməti yazır və onun müvafiq balla (50-yə qədər) müdafiyəyə buraxılmasına dair qərar verir.

## PEDAQOJİ İNTERNATURA MÜDDƏTİNDƏ PEDAQOQUN GÖRƏCƏYİ İŞLƏR

1. Pedaqoji internaturanın başlanğıc konfransında iştirak etmək
2. Məktəblə tanışlıq, direktor və digər rəhbər işçilərlə söhbətlərdə iştirak etmək.
3. Təcrübəçi-tələbələrin qruplar üzrə bölgüsündə iştirak.
4. Pedaqoji internaturanın gündəliyinin tərtibi haqqında təlimat vermək.
5. Pedaqoji internaturada iştirak edən tələbələrin bütün fəaliyyət istiqamətlərində-qərarların verilməsində, qiymətləndiril məsində, internatura üçün nəzərdə tutulan hüquqi-normativ sənədlərin tələblərinin yerinə yetirilməsində və.s aktiv iştirak etməli, təklif və qərarların qəbul olunmasında elmilik və müasirliyin təminatçısı olmalıdır.
6. Fərdi iş planının tərtibi.
7. Pedaqoji internatura müddətində görüləcək işlərin plan qrafikinin tərtibi.
8. Tərbiyəvi söhbətlərin hazırlanması və aparılması yolları haqqında təlimat.
9. Sinif rəhbərinin tərbiyəvi iş planı ilə tanışlıq və bu sahədə görüləcək işlər haqqında təlimat.
10.Təcrübəçi tələbələrin fənn müəllimlərinin məşğələlərində iştirakını təmin etmək.

11. Müasir məşğələ və yeni təlim metodları haqqında seminarlar təşkil etmək və onlardan səmərəli istifadəyə nail olmaq.

12.Tərbiyəvi söhbətlərin tələbələr arasında bölgüsünün təşkili.

13. Uşaqlarla fərdi təlim işinin aparılması metodikası haqqında təlimat vermək və tələb etmək.

14. Məşğələnin növü və quruluşu haqqında təlimat vermək.

15. Məşğələdə müasir pedaqoji texnologiyaların tətbiqi haqqında metodik təlimat vermək.

16. Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbələrin qarşılıqlı şəkildə məşğələlərdə iştiraklarını təmin etmək.

17. Pedaqoji internaturada iştirak edən təcrübəçi tələbələrin apardıqları tərbiyəvi söhbətlərdə iştirak etmək və onların təhlilini aparmaq.

18.Pedaqoji internaturanın yekunlaşdırılması və yekun konfransında iştirak etmək.

19. Şagirdin (uşağın) ailə şəraiti və ailə tərbiyəsi. Ailənin mədəni-məişət şəraiti, maddi təminatı, uşaqların sayı, cins tərkibi, ailədə uşağa qayğı və onun tərbiyəsinə münasibət, ailənin tipi (tam, natamam, mürəkkəb) valideynlərinin təhsil səviyyəsi. Məktəblə ailə arasında əlaqənin səviyyəsi. Ailə - məktəb münasibətlərinin uşağın mənəvi inkişafına təsiri və bu istiqamətdə tərbiyəçi və valideynlərlə söhbət.

20. Tələbələrin maraq dairəsi? Bu sahədə bilik, bacarıq və vərdişləri necədir? Dərs (məşğələ)lərə necə yanaşır? Dərs (məşğələ) prosesində fəaliyyət necədir? Şagirdin (uşağın) ümumi və xüsusi qabiliyyəti, **Şagirdin (uşağın)** aydın müşahidə olunan qabiliyyətləri: əmək fəaliyyətinə, zehni fəaliyyətə, musiqiyə, təsviri incəsənətə, riyaziyyata və s . Uşağın inkişaf baxımından aid olduğu məntiqi,tənqidi,yaradıcı təfəkkürü: Hansı qabiliyyətlər daha çox nəzərə çarpır? Gələcəkdə hansı peşəyə istiqamətləndirmək olar? Başqa uşaqlardan onu fərqləndirən hansı qabiliyyətlərə malikdir? Şagirdin (Uşağın) xüsusiyyətləri - təmkinlik, təşəbbüskarlıq, təkidlilik , qətiyyətlilik, qorxmazlıq, cəsarət, özünə inanırmı? və s.

## PEDAQOJİ İNTERNATURA MÜDDƏTİNDƏ PSİXOLOQUN GÖRƏCƏYİ İŞLƏR

- Pedaqoji internaturanın başlanğıc və yekun konfranslarında iştirak etmək
- Şagirdlərlə(uşaqlarla) işlərkən psixoloji biliklərdən istifadə etmək üçün lazım olan məlumatlar hazırlamaq və onun icrasına nail olmaq.
- Şagirdlərin (uşaqların) fərdi psixoloji xüsusiyyətlərini intellektual səviyyəsini müəyyənləşdirmək və bu istiqamətdə tərbiyəçilərə, valideynlərə kömək məqsədi ilə psixoloji xarakteristika tərtib etmək.

- Psixoloji xarakteristikasının tərtibində psixoloq aşağıdakılara əməl etməlidir:

- Gündəlik müşahidə dəftərini tərtib edib, şagirdləri (uşaqları) pedaqoji internatura müddətində müşahidə edib qeydlər aparıb xarakteristika hazırlamaq. Psixoloji xarakteristikanın tərtibində aşağıdakılar nəzərə alınmalıdır.

**1. Şagird haqqında ümumi məlumat :**

- Şagirdin (uşağın) soyadı, adı, atasının adı, yaşı, anadan olduğu və hal-hazırda yaşadığı yer, getdiyi bağçanın nömrəsi, sağlamlıq dərəcəsi və fiziki inkişafı

- Şagirdin (uşağın) ailə şəraiti və ailə tərbiyəsi. Ailənin mədəni-məişət şəraiti, maddi təminatı, uşaqların sayı, cins tərkibi, ailədə uşağa qayğı və onun tərbiyəsinə münasibət, ailənin tipi (tam, natamam, mürəkkəb) valideynlərinin təhsil səviyyəsi. Məktəblə ailə arasında əlaqənin səviyyəsi. Ailə - məktəb münasibətlərinin uşağın psixi inkişafına təsiri və bu istiqamətdə tərbiyəçi və valideynlərlə söhbət.

**2. Şagird(uşaq) kollektivində şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətləri**

- kollektivdə mövqeyi (qrupun fəalları sırasına daxildir, yoxsa passivdir)

- kollektivin fikir və meyarları ilə hesablaşırmı? Uşağın qrupa və qrupun uşağa münasibəti.

Qrupda kimlərlə dostluq edir? Qrup yoldaşları ilə ümumi dil tapır, yaxud dalaşır, tərbiyəçilərin sözünə qulaq asmır.

- Qrupda yoldaşları arasında nüfuzu varmı?

**3. Şagirdin (uşağın) təlim məşğələlərinə münasibətləri**

- Ən çox hansı fənlərə maraq göstərir? Hansı sahəyə maraq göstərir, bu sahədə bilik, bacarıq və vərdişləri necədir?

- Dərs (məşğələ)lərə necə yanaşır?

- Dərs (məşğələ) prosesində fəaliyyət necədir?

**4. Şagirdin (uşağın) ümumi və xüsusi qabiliyyəti**

**Şagirdin (uşağın)** aydın müşahidə olunan qabiliyyətləri: əmək fəaliyyətinə, zehni fəaliyyətə, musiqiyə, təsviri incəsənətə, riyaziyyata və s . Uşağın psixi inkişaf baxımından aid olduğu tip:

- Hansı qabiliyyətlər daha çox nəzərə çarpır?

- Gələcəkdə hansı peşəyə istiqamətləndirmək olar?

- Başqa uşaqlardan onu fərqləndirən hansı qabiliyyətlərə malikdir?

**5. Emosional - iradi sahənin xüsusiyyətləri**

- Pedaqoji təsirlərə emosional reaksiyaların xarakteri: intensivlik, əxlaqi, estetik, uşağın öz hisslərinə nəzarət edə bilməsinin səviyyəsi

- Şagirdin(Uşağın) iradi xüsusiyyətləri-təmkinlik, təşəbbüskarlıq, təkidlilik , qətiyyətlilik, qorxmazlıq, cəsarət, özünə inanırmı?

**Kafedra üzrə pedaqoji təcrübə rəhbəri:**

Fakültədə (kafedrada) pedaqoji internaturanın başlanğıc və yekun konfranslarını təşkil edir, internaturanın nəticələrinin ümumiləşdirilməsində iştirak edir.

Pedaqoji internatura rəhbəri məktəbdə (məktəbəqədər təhsil müəssisəsindəki) pedaqoji internatura işlərini təşkil edir.

Pedaqoji internaturanın planlaşdırılması və yekunlaşdırılması işlərinə rəhbərlik edir. Pedaqoji internaturanın təşkili və keçirilməsi üçün plan – cədvəl hazırlayır.

Kafedra pedaqoji internaturaya rəhbərlik edən metodistlərin internatura ilə bağlı işlərinə nəzarət edir, pedaqoji təcrübənin təşkili və gedişindəki nöqsanları üzə çıxarıb, aradan qaldırmaq üçün tədbirlər görür.

Pedaqoji internatura ilə əlaqədar əldə edilmiş göstəriciləri ümumiləşdirir, onun səmərəliliyini artırmaq üçün təkliflər verir.

Tələbələrin pedaqoji internaturasına ümumi rəhbərlik universitet üzrə pedaqoji internatura rəhbəri (təcrübə və koryera şöbəsi) tərəfindən həyata keçirilir.

Əlavələrin siyahısı

Əlavə 1. Dərsin müşahidə vərəqəsi

Əlavə 2. Uşaqlarin psixoloji inkişafi üzrə müşahidə vərəqi

Əlavə 3. Şagird haqqında məlumat kartı

Əlavə 4. Sinifdə mövcud vəziyyətin araşdırılması

Əlavə 5. Valideynlərlə sorğu vərəqi

Əlavə 6. Marağı müəyyən etmək üçün tapşırıq

Əlavə 7. Görmə testi

## Əlavə 1.

Dərsin müşahidə vərəqəsi

**Dərsin mövzusu________________________Standart______**

| № | Mühüm parametrlər | Qeydlər | Qiymətləndirmə | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Standartların düzgün seçilməsi | | | | | | |
| 2 | Məqsədin standarta uyğunluğu | | | | | | |
| 3 | Məqsədin reallaşdırıl-ması üçün əlverişli forma və üsulların seçilməsi | | | | | | |
| 4 | Fəndaxili və fənlər-arası inteqrasiya | | | | | | |
| 5 | Resurslardan məqsə-dəuyğun istifadə | | | | | | |
| 6 | Motivasiyanın məqsə-dəuyğun qoyulması | | | | | | |
| 7 | Tədqiqat sualının təlim məqsədinə uy-ğunluğu | | | | | | |
| 8 | Təlim tapşırığının problemin həllinə istiqamətlənməsi və şagirdlərin ***potensial imkanlarına*** uyğun-luğu | | | | | | |
| 9 | Dərs prosesində müəl-lim-şagird münasibət-ləri | | | | | | |
| 10 | Şagirdlərdə əməkdaş-lıq bacarığının forma-laşdırılması | | | | | | |
| 11 | Şagirdlərin müstəqil işləmə bacarığı | | | | | | |
| 12 | Şagirdlərin təqdimetmə bacarığı | | | | | | |
| 13 | Şagirdlərin qiymətlən-dirilməsi | | | | | | |
| 14 | Müəllim nitqinin aydınlığı | | | | | | |
| 15 | Dərsdə vaxtdan səmərəli istifadə | | | | | | |
| **Nəticə** | | | | | | | |

## Əlavə 2.

Uşaqlarin psixoloji inkişafi üzrə müşahidə vərəqi

**Müəllim___________________________________**

| № | Şagirdlərin adı | Göstəricilər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Üzgünlük, taqətdən düşmə və nəticədə aşağı iş qabiliyyət Üzgünlük, taqətdən düşmə və nəticədə aşağı iş | Emosiyaların qeyri-yetkinliyi | Iradənin zəifliyi | Psixopatiyayabənzər davranış; | Ümumi anlayışların və təsəvvürlərin məhdud ehtiyatı | Yoxsul söz ehtiyatı | Səs analizinin çətinliyi | Intellektual fəaliyyət vərdişlərinin formalaşmaması | Yadda saxlamaq üçün köməkçi vasitələrdən istifadə bacarıqlarının | Sensor informasiyaların qəbulu və təhliline uzun müddətin lazım olması | Diqqətin davamsızlığı | Özünənəzarətin aşağı olması; |
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 1 | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | |
| **Nəticə** | | | | | | | | | | | | | |

## Əlavə 3.

## Şagird haqqinda məlumat kartı

“Şagird haqqında məlumat kartı “ şagirdlə bağlı araşdırmaların nəticəsinə əsaslanaraq yerinə yetirilir. Bu kart oktyabr ayının sonuna qədər işlənib tamamlanmalıdır. Yuxarı siniflərdə müxtəlif məsələlər baxımından uşaqda baş vermiş dəyişikliklər araşdırılır.

**Şəhər, rayon, məktəbin adı**________________________________________

**Şagirdin adı soyadı atasının adı**____________________________________

**Tədris ili** _________________________**Sinif**________________________

| I. FİZİKİ FİZİOLOJİ SAĞLAMLIĞI | | | | | |
|---|---|---|---|---|---|
| | Həkimin rəyi | Müşahidə | Valideynlə söhbət | Test və ya tapşırıq | Nəzərə alınmalı məsələlər |
| Nitqin inkişafı | | | | | |
| Eşitmə aparatı | | | | | |
| Görmə aparatı | | | | | |
| Dayaq aparatları | | | | | |

| II. SOSİAL VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | Sənədlərin araşdırılması | Müşahidə | Valideynlə söhbət | Şagirdlə söhbət | Nəzərə alınmalı məsələlər |
| Valideynlərin iş yeri və şəraiti | | | | | |
| Qidası və mövsümi geyimi | | | | | |
| Dərs ləvazimtları ilə təminatı | | | | | |

| III. İDRAK SƏVİYYƏSİ VƏ DƏRKETMƏ ÜSULLARI | | | | |
|---|---|---|---|---|
| | Müşahidə | Valideynlə söhbət və sorğu | Test və ya tapşırıq | Nəzərə alınmalı məsələlər |
| Əqli inkişafı | | | | |
| İdrak səviyyəsi | | | | |
| Dərketmə üsulu | | | | |

| IV. PSİXİ İNKİŞAFI VƏ MƏNƏVİ PSİXOLOJİ VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | Müşahidə | Şagirdin özü ilə söhbət | Valideynlə söhbət | Yoldaşları ilə söhbət | Nəzərə alınmalı məsələlər |
| Psixi inkişafı | | | | | |
| Mənəvi psixoloji stabilliyi | | | | | |

| V. MARAQLARI | | | | | |
|---|---|---|---|---|---|
| | Müşahidə | Şagirdin özü ilə söhbət | Valideynlə sorğu | Tapşırıq | Nəzərə alınmalı məsələlər |
| Marağı | | | | | |

| VI. ŞAGİRDİN HAZIRLIQ SƏVİYYƏSİ VƏ İNKİŞAF DİNAMİKASI | | | |
|---|---|---|---|
| | Sənədlərin araşdırılması | Məlumatların təhlili | Nəzərə alınmalı məsələlər |

| | | | | |
|---|---|---|---|---|
| **Diaqnostik qiymətləndirmə** | | | | |
| **Summativ qiymətləndirmə** | | | | |
| İnkişafın dinamikası | | | | |
| **VII.** | **ETNİK, DİNİ, MİLLİ MƏNSUBİYYƏTİ** | | | |
| | **Sənədlərin araşdırılması** | **Valideynlə söhbət** | **Şagirdin özü ilə söhbət** | **Nəzərə alınmalı məsələlər** |
| Milliyəti | | | | |
| İrqi | | | | |
| Dini | | | | |
| | | | | |

**Əlavə 4.**

Sinifdə mövcud vəziyyətin araşdırılması

**Şəhər, rayon, məktəbin adı** ________________________________________

**Müəllimin adı, soyadı, atasının adı**________________________________

**Tədris ili** ________________________**Sinif**________________________

| I. FİZİKİ FİZİOLOJİ SAĞLAMLIQ | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Nitqin inkişafı | | | | | |
| Eşitmə aparatı | | | | | |
| Görmə aparatı | | | | | |
| Dayaq aparatları | | | | | |

| II. SOSİAL VƏZİYYƏT | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Valideynlərin iş yerində şəraiti | | | | | |
| Qidası və mövsümi geyimi | | | | | |
| Dərs ləvazimtları ilə təminatı | | | | | |

| III. İDRAK SƏVİYYƏSİ VƏ DƏRKETMƏ ÜSULLARI | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Əqli inkişafı | | | | | |
| İdrak səviyyəsi | | | | | |

| Dərketmə üsulu | Lingv istik | Vizual-məkan | Məntiqi-riyazi | Səs-Musi qi | Bədən-kinestik | Fərdlər-arası | Fərd-daxili | Naturalis |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |

| IV. PSİXİ İNKİŞAFI VƏ MƏNƏVİ PSİXOLOJİ VƏZİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Psixi inkişafı | | | | | |
| Mənəvi psixoloji stabilliyi | | | | | |

| V. MARAQLARI | | | | | |
|---|---|---|---|---|---|
| | TƏBİƏT | İDMAN | TEXNOLOGİYA | CANLILAR | NƏTİCƏ |
| Marağı | | | | | |

| VI. ŞAGİRDİN HAZIRLIQ SƏVİYYƏSİ VƏ İNKİŞAF DİNAMİKASI | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Summativ qiymətləndirmə | | | | | |
| İnkişafın dinamikası | | | | | |

| VII. ETNİK, DİNİ, MİLLİ MƏNSUBİYYƏTİ | | | | | |
|---|---|---|---|---|---|
| | AZƏRBAYCANLI | İSLAM | AVROPOİD | DİGƏR | NƏTİCƏ |
| Milliyəti | | | | | |
| İrqi | | | | | |
| Dini | | | | | |

| V III.. SİNFİN TƏRTİBATI VƏ TƏCHİZATI | | | | | |
|---|---|---|---|---|---|
| | YÜKSƏK | YAXŞI | ORTA | ZƏİF | NƏTİCƏ |
| Təmiri | | | | | |
| Cədvəllər və şəkillər | | | | | |
| Şagirdlərin əl işləri | | | | | |
| Texnologiyalar | | | | | |
| Mebel | | | | | |

**Əlavə 5.**

## Valideynlərlə sorğu vərəqi

**Bu vərəq məktəb rəhbərliyi tərəfindən valideynlərə göndərilir.**

***Hörmətli valideyn,***

*Siz övladınızın həyatında ən mühüm rol oynayan insansınız. Övladınızın məktəb həyatında sizin fəal iştirakınız onun nailiyyətlərinin yüksəlməsinə böyük təsir göstərə bilər. Bu səbəbdən bir sizinlə daha yaxından əməkdaşlıq etməyin yollarını axtarırıq. Xahiş edirik ki, sizə göndərdiyimiz suallara cavab vermək üçün bir az vaxt ayırasınız. Sonra həmin vərəqi övladınız vasitəsi ilə məktəbə göndərəsiniz. Məktəb ailə münasibətlərinin inkişaf etdirilməsi üçün görülən işlərə verdiyiniz töhvyə görə təşəkkürümüzü bildiririk. Sizin münasibətiniz bizim üçün çox əhəmiyyətlidir.*

*Məktəb rəhbərliyi.* __________________________*(İmza)*

1. **Aşağıdakı məsələlərə münasibət bildirin**.

-***1 = Heç vaxt 2 = Nadir hallarda 3 = Hərdən 4 = Çox vaxt 5 = Daim***

| **Sual** | **1** | **2** | **3** | **4** | **5** |
|---|---|---|---|---|---|
| Uşağınızın müəllimi mülayim və xoşrəfdardırmı? | | | | 7 | 10 |
| Dərs ili boyu uşağınızın müəllimi ilə məktəb vaxtı (valideyn şurası çərçivəsində) və məktəbdənkənar vaxtda ünsiyyət yaratmaq üçün sizə əlverişli şərait yaradılırmı? | | | | 9 | 8 |
| Uşağınız və onun təhsil aldığı sinifdən gözlənilən nəticələr barədə müəllim tərəfindən sizə kifayət qədər izahat verilibmi? (məktub, telefon vasitəsi ilə və ya üzbə-üz) | 1 | 3 | 7 | 4 | 2 |
| Uşağınız təhsil aldığı məktəbə könüllü olaraq hər hansı bir şəkildə yardım edirsinizmi? | | 6 | 11 | | |
| Aşağıda göstərilənlərdən hansında iştirak etmək istərdiniz? | | | | | |
| - *ev tapşırıqlarını yerinə yetirməkdə uşağınıza kömək göstərməyin yollarını öyrənmək üçün məşğələlərdə iştirak etmək istərdiniz.* | | | 8 | | |
| - *Standartlara əsasən keçirilmiş yoxlama nəticələrinin şərh etmək üçün görüşlər* | | | 6 | 11 | |
| - *"Açıq qapı" günlərinin keçirilməsi.* | 1 | 12 | 4 | | |
| - *"Ailəmizlə birlikdə" təlim fəaliyyətlərinə əsaslanan yarış gecələri (Nağıl gecələri, Riyaziyyat axşamları, Təbiət fənləri, İncəsənət (rəsm, musiqi, yapma və s. üzrə layihələr və s.)* | 2 | 15 | | | |
| - *Sinifdən sinfə keçərkən sinif otağının yenidən tərtibi işləri.* | 3 | 1 | 13 | | |

**Aşağıda göstərilən daha hansı işlərdə sinfə və ya məktəbə könüllü yardım etmək istərdiniz:**

| **Fəaliyyətlər** | **Tam şəkildə** | **Bir qədər** | **Heç cür** |
|---|---|---|---|
| Ekskursiyaların təşkilində | 5 | 10 | 2 |
| Kitabxanada | 8 | 6 | 3 |
| Musiqi və fiziki tərbiyə dərslərində geyimlərini dəyişəndə | 2 | 15 | |
| Yeməkxanada | 3 | 4 | 10 |
| Əlavə qayğya ehtiyacı olan uşaqlara yardım | 4 | 13 | |
| Təlim məqsədili əlavə resursların hazırlanmasında | 3 | 11 | 3 |
| Oxu dərslərində | | 9 | 8 |
| Sənədlərin hazırlanmasında (dəftərxana işlərində) | | 8 | 9 |
| Kompyuterlərə xidmət və ya təlim prosesində şagirdlərin kompyuterdə işləməsinə dəstəkdə | | 3 | 14 |
| İxtisaslar üzrə (məs.Riyaziyyat dərslərində) | | 14 | 3 |
| Xüsusi layihələrdə | | 12 | 5 |
| Tədbirlərin təşkilində | 7 | 2 | 8 |
| Çap işlərində (Word) | | 1 | 16 |

**Əlavə 6.**

Marağı müəyyən etmək üçün tapşırıq

**Bu şəkillərdən birinə aid mətn qurun.**

| **ŞƏKİL** | **MƏTN** *(ŞİFAHİ VƏ YA YAZILI)* |
|---|---|
|  | |
| | |
|  | |
| | |
|  | |
| | |
|  | |

**Əlavə 7.**

**Görmə testi**

Verilmiş şəkillərə diqqətlə baxın. Tanıdıqlarınızı dairəyə alın.



## ƏDƏBİYYAT SİYAHISI

1. «Müəllimlik təcrübəsi keçən tələbələr üçün uğurlu praktikum proqramının yaradılması» (Açıq Cəmiyyət İnstitutu – Yardım fondu). «Yeni nəsil» nəşrlər evi. Bakı-2003.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin müəllim

3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Tələbələrin biliyinin qiymətləndirilməsinin çoxhədli sistemi haqqında Əsasnamə»nin təsdiqi barədə 15.05.2003-cü il tarixli 420 saylı əmr.

4. Rüstəmov F., Dadaşova T., Ali məktəb pedaqogikası, Bakı 2007

5. http://tefrkkuretm.com

6. http://edu.gov.az/